# Ümummilli Liderin 100 illiyi ilə əlaqədar "Heydər Əliyev və dilçilik məsələləri" mövzusunda tədbir keçirilib



Bu günlərdə Şalyan Rayon Mərkəzi kitabxanasında tanınmış dilçi-alim, Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli ilə görüş keçirilmişdir. Görüşdə rayonun təhsil və mədəniyyət müəssisələrinin əməkdaşları, şair və yazıçılar, yaradıcı gənclər iştirak etmişlər.

Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov tədbiri açmış, "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda videoçarx nümayiş etdirilmişdir. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən tədbirdə professor Nadir Məmmədli "Heydər Əliyev və dilçilik məsələləri" mövzusunda məruzə etmiş, Ulu Öndərimizin Azərbaycan dilçilik elminin inkişafında misilsiz xidmətlərindən danışmışdır. O, xalqımızın ən böyük mənəvi sərvəti hesab edilən dilimizin daha da təkmilləşdirilməsi sahəsində həyata keçirilən mühüm tədbirlərin xüsusi əhəmiyyətini qeyd etmişdir. Məruzəçi Heydər Əliyevin Azərbaycan dili siyasətinin Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", eləcə də "Azərbaycan Milli Ensiklopediyasının nəşri barədə", həmçinin 2012-ci ildə Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının - Ana dili siyasətinin uğurla həyata keçirildiyini bildirmişdir. Hələ Ulu Öndərin sağlığında - 2001-ci il avqustun 1-də respublikada latın qrafikasına keçidlə bağlı ölkədə "Azərbaycan Əlifbası və Azərbaycan Dili günü"nün təsis olunması bu işin bariz nümunəsidir.

Salyan şəhər 2 saylı orta məktəbin müəllimi, AMEA Dilçilik İnstitunun disertantı Günel Orucova, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Zabil Pərviz, şair-publisist Əzizağa Məmmədli, Mərkəzi Kitabxananın direktoru Səidə Əliyeva və başqaları çıxışlarında Heydər Əliyevin Azərbaycanda dilçilik elminin inkişafında mühüm xidmətləri olduğunu qeyd etmişlər.

Sonda Salyan İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov rayon ictimaiyyəti adından professor Nadir Məmmədliyə təşəkkür etmiş, belə görüşlərin mütəmadi keçirilməsinin əhəmiyyətli olduğunu vurğulamışdır.